*Almaniya Federativ Respublikası*

Bundesamt für Migration und Flüchtlinge

euaa EUROPEAN UNION AGENCY FOR ASYLUM

# BEYNƏLXALQ MÜDAFİƏ ÜÇÜN TƏKRAR MÜRACİƏT ETDİKDƏ BİLMƏLİ OLDUĞUNUZ ƏSASLAR (ƏLAVƏ MÜRACİƏT)



AZERBAIJAN

Siz indi Almaniyadasınız, bu isə Aİ+ ölkəsidir.
Aİ+ ölkələri aşağıdakılardı:

Avropa İttifaqının (Aİ) 27 üzv dövləti: Almaniya, Avstriya, Belçika, Bolqarıstan, Çexiya, Danimarka, Estoniya, Finlandiya, Fransa, Xorvatiya, İrlandiya Respublikası, İspaniya, İsveç, İtaliya, Kipr, Latviya, Litva, Lüksemburq, Macarıstan, Malta, Niderland, Polşa, Portuqaliya, Rumıniya, Slovakiya, Sloveniya, Yunanıstan və

digər 4 ölkə: İslandiya, İsveçrə, Lixtenşteyn və Norveç..

# MÜNDƏRİCAT


Əlavə müraciət nədir? 3

Prosedur necə keçir? 5

- Mərhələ 1: müraciətiniz qeydiyyata alınmalı və yenidən təqdim edilməlidir 5
- Mərhələ 2: müraciətinizin ilkin baxılması 9
- Mərhələ 3: müraciətinizə mahiyyəti üzrə baxılması 11
- Mərhələ 4: müraciətiniz üzrə qərarın çıxarılması 12

Hansı hüquqlarınız var? 13

Hansı öhdəlikləriniz var? 17

Öhdəliklərinizi yerinə yetirmədiyiniz halda, nəticələr nə olacaq? 21

Ehtiyacınız olarsa, xüsusi dəstək alacaqsınız 23

Ölkənizə qayıtmaq istəyirsinizsə nə etməlisiniz? 24

## ƏLAVƏ MÜRACİƏT NƏDİR?

Beynəlxalq müdafiə üçün ikinci dəfə və ya daha çox hər hansı bir Aİ+ ölkəsində müraciət etdikdə, sizin yeni müraciətiniz əlavə müraciət adlanır.

Əvvəlki müraciətiniz başqa bir Aİ+ ölkəsində edilmiş olsa belə, yeni müraciətiniz əlavə müraciətdir.

Əlavə müraciət əvvəlki qərardan apelyasiya şikayəti deyil. Əlavə müraciəti yalnız əvvəlki müraciətinizlə bağlı prosedur başa çatdıqdan sonra edə bilərsiniz. Bu o deməkdir ki:

- Əvvəlki müraciətinizlə bağlı qərarı artıq almısınız
- hazırda baxılmaqda olan müraciətiniz yoxdur, və
- Apelyasiya şikayəti vermək üçün müəyyən edilmiş müddət başa çatmışdır.

Əvvəlki qərarla sadəcə razılaşmama beynəlxalq müdafiə üçün yenidən müraciət etmək üçün əsas hesab olunmur.

Əgər siz əlavə müraciət təqdim edirsinizsə, beynəlxalq müdafiəyə ehtiyacınız olduğunu əsaslandıran yeni faktlar (məsələn, sübutlar və ya sənədlər) təqdim etməlisiniz.



Yeni faktlar — beynəlxalq müdafiə üçün müraciətinizi dəstəkləyən və əvvəlki müraciət(lər)iniz zamanı təqdim edə bilmədiyiniz faktlardır.



Yeni faktlar, müraciətiniz üzrə qərarın verildiyi tarixdən sonra aldığınız yeni sənədlər və ya sübutlar və ya son baş verən hadisələr ola bilər, məsələn:

- başınıza gələn yeni hadisələr
- ölkənizdə baş verən yeni hadisələr
- şəxsi vəziyyətinizdə dəyişikliklər.

İstisna olaraq, aşağıdakı səbəblərdən biri tətbiq olunarsa, yeni faktlar əvvəlki müraciətiniz zamanı mövcud olan faktlar də ola bilər.

- Əvvəlki müraciətiniz zamanı bu yeni faktları bilməyiniz mümkün deyildi.
- Aydın səbəblərə görə, bu yeni elementləri müzakirə edə bilməmişdiniz. Bu halda, sizdə həmin səbəbləri izah etməyiniz tələb olunana bilər.

Əvvəlki müraciətinizdə təqdim etdiyiniz məlumatlar nəzərə alınacaq. Lakin əvvəlki müraciətinizə yenidən baxılmayacaq.

## SIĞINACAQ PROSEDURU NƏDIR?

Beynəlxalq müdafiə üçün yenidən müraciət etdiyinizi (bu, əlavə müraciət adlanır) müvafiq səlahiyyətli qurumlara bildirdikdən sonra bir neçə mərhələdən ibarət prosedur keçiriləcək.

### Mərhələ 1. Müraciətiniz qeydiyyata alınmalı və yenidən təqdim edilməlidir

Qeydiyyat və təqdim etmə aşağıdakı aspektləri əhatə edir.



Barmaq izləriniz götürüləcək.



Fotoşəkiliniz çəkiləcək.




Sizdən bütün şəxsiyyətinizi təsdiq edən sənədlərinizi, səyahət sənədlərinizi və alinizdə olan yeni sənədləri təqdim etməyiniz xahiş olunacaq.



Əlaqə məlumatlarınızı (ünvan, telefon nömrəsi və elektron poçt ünvanı) təqdim etməyiniz xahiş olunacaq.



Tibbi müayinədən keçməli ola bilərsiniz.



Üzəriniz və əşyalarınız axtarıla bilər. Təhlükəli hesab edilən əşyalar istisna olmaqla, şəxsi əşyalarınız sizin mülkiyyətinizdə qalır və sizə qaytarılacaq.



Sizdən tələb olunacaq:

- şəxsi məlumatlarınızı və bu ölkədə və ya digər Aİ+ ölkəsində yaşayan ailə üzvləriniz haqqında məlumatları təqdim etmək (əgər varsa)
- Əlavə müraciəti etməyinizin səbəblərini izah etmək.





Sizdən növbətiləri etməyiziniz xahiş olunacaq

• Müraciətinizi dəstəkləmək üçün bütün məlumat və sənədləri təqdim etmək. Buraya əsasında əlavə müraciətinizi təqdim etdiyiniz yeni faktlar daxildir. Yeni elementlər beynəlxalq müdafiəyə ehtiyacınız olduğunu göstərən yeni faktlar və ya dəlillər ola bilər.

• Beynəlxalq müdafiə üçün əvvəlki müraciətləriniz barədə suallarınızı cavablandırın.



Səlahiyyətli qurumlarla paylaşdığınız hər hansı bir məlumat məxfi saxlanılacaq. Bu məlumat heç vaxt müdafiə axtardığınız şəxslərə ötürülməyəcəkdir.

## MÜRACİƏTİN QEYDİYYATI VƏ TƏQDİM EDİLMƏSİ NƏ VAXT VƏ HARADA BAŞ TUTACAQ?

Beynəlxalq müdafiə üçün müraciətiniz sizə bildiriləcək tarix və vaxtda qeydiyyata qəbul mərkəzində və ya Federal Miqrasiya və Qaçqınlar İdarəsində qeydiyyata alınacaq. Bu, skrininqin hazırlanmasından və ya bitməsindən ən geci 5 gün ərzində baş verməlidir.

Müraciətiniz qeydiyyatdan keçirdikdən sonra, qeydiyyat zamanı sizə bildirilən tarixdə və saatda onu şəxsən təqdim etməlisiniz.

Müraciətin təqdim edilməsi, müraciət qeydiyyata alındığı tarixdən etibarən 21 gündən gec olmayaraq həyata keçirilməlidir.

Müstəsna hallarda, sığınacaq ərizəsinin verilməsi və təqdim edilməsi niyyəti Federal Miqrasiya və Qaçqınlar İdarəsinə xüsusi ərizə forması vasitəsilə bildirilməlidir.

Müraciətinizi təqdim etməyiniz çox vacibdir. Müraciəti təqdim etməsəniz, səbəbi sizdən asılı olmadığı hallar istisna olmaqla, müraciətiniz geri götürülmüş hesab ediləcək. Bu o deməkdir ki, siz müraciət edən statusunuzu, dəstək və xidmətlərdən istifadə hüququnuzu və həmin ölkədə qalmaq hüququnuzu itirəcəksiniz.





Qeydiyyatdan keçdikdən sonra, müraciətinizin verildiyini və qeydiyyata alındığını bildirən rəsmi sənəd alacaqsınız.

Həmin sənəd hər zaman yanınızda olmalıdır.

## Mərhələ 2. Müraciətinizin ilkin baxılması



Müraciət təqdim edildikdən sonra növbəti mərhələ müraciətinizin ilkin baxılmasıdır. İlkin araşdırma zamanı səlahiyyətli qurumlar təqdim etdiyiniz faktların həqiqətən yeni olub-olmadığını və bu elementlərin rədd edilmiş əvvəlki müraciətinizin nəticəsini dəyişdirə bilib-biləcəyini qiymətləndirəcəklər.



İlkin baxılma zamanı müsahibəyə dəvət oluna bilərsiniz. Müsahibəyə dəvət olunmasanız, ilkin baxılma yalnız sənəddə təqdim edilmiş faktlara əsaslanacaq.

İlkin baxılma zamanı müraciətiniz

- ya qəbul edilən,
- və  ya qəbul edilməyən hesab olunacaq

Ərizəniz qəbul olunarsa, müraciətiniz əlavə olaraq araşdırılacaq. Bu o deməkdir ki, siz standart sığınacaq prosedurunda olduğu kimi eyni mərhələlərdən keçəcəksiniz.

Ərizəniz qəbul edilən deyilsə, ona əlavə baxılmayacaq və prosedur başa çatacaq. Səlahiyyətli qurumlar ərizənizin qəbul edilməməsinin səbəbləri barədə sizə məlumat verəcəklər. Qərar barədə sizə yazılı şəkildə məlumat veriləcək. Qərarla razı olmasanız, ona qarşı apelyasiya şikayəti verə bilərsiniz. Apelyasiya şikayəti vermək üçün təmənnasız olaraq hüquq məsləhətçisi (vəkil) tələb edə bilərsiniz.




Əgər müraciətinizə yeni faktlar təqdim edirsinizsə və bu yeni faktlar sizin beynəlxalq müdafiəyə ehtiyacınız olduğunu göstərirsə, müraciətiz qəbul edilən hesab olunur.

Əgər beynəlxalq müdafiəyə ehtiyacınız olduğunu göstərən yeni faktlar təqdim etməsəniz, müraciətiniz qəbul edilməyən hesab olunur.

Əgər müraciətinizin qəbul edilə bilən olduğu müəyyən edilərsə, aşağıdakı mərhələlər tətbiq olunacaq.

## Mərhələ 3. Müraciətinizə mahiyyəti üzrə baxılması

Əgər müraciətiniz qəbul edilə biləndirsə, səlahiyyətli qurumlar sizin beynəlxalq müdafiə üçün müraciət etdiyiniz səbəbləri və hansı səbəbdən öz ölkənizə qayıtmaq istəmədiyinizi araşdıracaqlar (bu, işə mahiyyəti üzrə baxılma adlanır). Əgər müraciətiniz qəbul edilə biləndirsə, o, standart sığınacaq prosedurunda olduğu kimi eyni mərhələlərdən keçəcək. Lakin əlavə müraciətinizə baxılma müddəti sürətləndirilə bilər.



Səlahiyyətli qurum işinizdəki faktlara əsaslanaraq birbaşa müsbət qərar qəbul edə bilməsə, şəxsi müsahibəyə dəvət olunacaqsınız.

### TİBBİ MÜAYİNƏ



Səlahiyyətli qurumların nümayəndələri sizdən keçmiş təqib və ya ciddi zərər əlamətləri ilə bağlı tibbi müayinədən keçməyinizi xahiş edə bilər. Müayinə ödənişsizdir və sizdən buna razılıq verməyiniz xahiş olunacaq.

Müayinənin nəticələri barədə sizə məlumat veriləcək və bu nəticələr müraciətinizin qiymətləndirilməsində nəzərə alınacaqdır. Əgər səlahiyyətli qurumlar tərəfindən heç bir müayinə tələb olunmasa, siz müayinənin öz hesabınıza aparılmasını tələb edə bilərsiniz.

# Mərhələ 4. Müraciətiniz üzrə qərarın çıxarılması



Səlahiyyətli qurumlar sizə beynəlxalq müdafiənin verilib-verilməməsi barədə yazılı məlumat verəcəklər.



## MÜRACİƏT ETMƏK İMKANI

Qərarla razı deyilsinizsə, ondan şikayət edə bilərsiniz.

# HANSI HÜQUQLARINIZ VAR?

## QALMAQ Və QəBUL DəSTəYİ ALMAQ Və XİDMəTLəRDəN İSTİFADə ETMəK HÜQUQUNUZ VAR.

Əgər bu, ilk əlavə müraciətinizdirsə, prinsipcə müraciətinizin baxılması başa çatana qədər bu ölkədə qalmağınıza icazə verilir.

❗ Aşağıdakı hallarda müraciətinizə baxılması zamanı bu ölkədə qalmağınıza icazə verilməyə bilər, əgər:

- bu sizin ikinci və ya daha sonrakı əlavə müraciətinizdir, və ya
- siz beynəlxalq müdafiə üçün yalnız bu ölkədən yaxın zamanda çıxarılmağınızı gecikdirmək məqsədilə müraciət etmisiniz

❗ Apelyasiya proseduru zamanı ölkədə qalmağınıza icazə verilməyə bilər. Bu halda səlahiyyətli qurumlar sizə səbəblər barədə məlumat verəcək və apelyasiya proseduru zamanı ölkədə qalmağa icazə verilməsini tələb edib-etməyəcəyiniz və bunu necə edə biləcəyiniz barədə məlumatlandıracaq.

Qaldığınız müddət ərzində siz qəbul dəstəyi alacaq və xidmətlərdən istifadə edəcəksiniz; lakin bunlar müvafiq orqanın fərdi qərarına əsasən məhdudlaşdırıla bilər. Qəbul dəstəyi və xidmətlər barədə daha ətraflı məlumat əldə etmək üçün ayrıca broşüra baxın.





## SİZİN TƏRCÜMƏÇİ XİDMƏTİNDƏN İSTİFADƏ ETMƏK HÜQUQUNUZ VAR



Əgər siz almanca danışmırsınızsa, qeydiyyat və müraciətin təqdim edilməsi zamanı, eləcə də şəxsi müsahibə zamanı səlahiyyətli nümayəndələrlə ünsiyyət qurmağınıza tərcüməçi kömək edəcək. Tərcüməçi xidməti ödənişsizdir.

## ÖZÜNÜZÜ TAM ŞƏKİLDƏ İFADƏ ETMƏYİNİZƏ KÖMƏK EDƏCƏKSƏ, ŞƏXSİ MÜSAHİBƏ ZAMANI KİŞİ VƏ YA QADIN TƏRCÜMƏÇİNİN VƏ YA MÜSAHİBƏ APARANIN İŞTİRAK ETMƏSİNİ XAHİŞ EDƏ BİLƏRSİNİZ



Səbəblərinizdən asılı olaraq və imkan olduğu təqdirdə, sorğunuz təmin ediləcək.

## MƏLUMATLANDIRILMAQ VƏ TƏMƏNNASIZ HÜQUQİ MƏSLƏHƏT TƏLƏB ETMƏK HÜQUQUNUZ VAR

Sığınacaq proseduru zamanı siz ödənişsiz hüquqi məsləhət istəyə bilərsiniz.



Bununla belə, aşağıdakı hallarda ödənişsiz hüquqi məsləhət almaq hüququnuz olmaya bilər:

- siz əlavə müraciətinizi yalnız geri qaytarılma prosedurunu “dayandırmaq” məqsədilə təqdim etmisiniz; və ya
- bu sizin ikinci (və ya daha sonrakı) əlavə müraciətinizdir.

Siz Federal Miqrasiya və Qaçqınlar İdarəsindən məlumat və hüquqi məsləhəti istəyə bilərsiniz.

## ÖZ VƏSAİTLƏRİNİZ HESABINA HÜQUQ MƏSLƏHƏTÇİSİ (VƏKİL) İLƏ MƏSLƏHƏTLƏŞƏ BİLƏRSİNİZ

Hüquq məsləhətçisi sizə şəxsi hüquqi yardım göstərən və ya səlahiyyətli şəxslərlə münasibətdə sizi təmsil edən şəxsdir. Sığınacaq prosedurunun istənilən mərhələsində öz hesabınıza hüquq məsləhətçisi ilə məsləhətləşmək hüququnuz var.



Hüquqi təmsilçiliyi xərclərini ödəmək üçün vəsaitiniz yoxdursa, apelyasiya zamanı pulsuz hüquq məsləhətçisi tələb edə bilərsiniz.

Müəyyən bir hüquq məsləhətçisinə üstünlük verirsinizsə, onun əlaqə məlumatlarını ən qısa müddətdə səlahiyyətlilərə bildirin

Hüquq məsləhətçinizin məlumatlarını səlahiyyətli şəxslərə təqdim edin ki, onlar müraciətiniz barədə sonuncuları məlumatlandıra bilsinlər.

## BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ QAÇQINLAR ÜZRƏ ALİ KOMİSSARLIĞI (UNHCR) VƏ YA DİGƏR TƏŞKİLATLARLA ƏLAQƏ SAXLAYA BİLƏRSİNİZ

Sığınacaq prosedurunun istənilən mərhələsində BMT Qaçqınlar üzrə Ali Komissarlığı (UNHCR) və ya onun tərəfdaş təşkilatları ilə əlaqə saxlaya və ünsiyyət qura bilərsiniz.




BMT QAK sığınacaq axtaran şəxslərin və qaçqınların maraqlarını və hüquqlarını qoruyur. BMT QAK və ya onun tərəfdaş təşkilatları sığınacaq axtaran şəxslərə həmçinin məlumat verir və yardım göstərir.

BMT QAK-ın əlaqə məlumatları və sığınacaq proseduru ilə bağlı məlumatları BMT QAK-ın https://help.unhcr.org/ internet səhifəsində tapa bilərsiniz.

Siz həmçinin sığınacaq axtaran şəxslərə hüquqi yardım və ya digər məsləhət xidmətləri göstərən təşkilatlarla da əlaqə saxlaya bilərsiniz.

## HANSI ÖHDƏLİKLƏRİNİZ VAR?

### BU ÖLKƏNİN QANUNLARINA RİAYƏT EDİN



### BEYNƏLXALQ MÜDAFİƏ ÜÇÜN MÜRACİƏT ETDİYİNİZ ÖLKƏDƏ QALIN




Başqa bir Ai+ ölkəsinə getməyə cəhd etməyin. Yalnız səlahiyyətli qurumlar tərəfindən icazə verildiyi halda başqa bir Ai+ ölkəsinə səyahət edə bilərsiniz.

### SƏLAHİYYƏTLİ QURUMLARIN SİZİNLƏ ƏLAQƏ SAXLAYA BİLMƏSİNİ TƏMİN EDİN VƏ TƏYİN OLUNMUŞ GÖRÜŞLƏRƏ VAXTINDA GEDİN.




Səlahiyyətli qurumların tələbi ilə bütün görüşlərdə şəxsən iştirak etməlisiniz. Orada vaxtında olmalısınız. Əgər ciddi səbəbə görə görüşdə iştirak edə bilmirsinizsə, dərhal səlahiyyətli qurumlara bunun barəsində məlumat verin və səbəbini izah edin.



## SƏLAHİYYƏTLİ QURUMLARLA SIX ƏMƏKDAŞLIQ EDİN

Tələb olunduqda, aşağıdakıları yerinə yetirməlisiniz.

- Müraciətinizi dəstəkləmək üçün şəxsi məlumatlarınızı, sənədlərinizi və digər müvafiq məlumatları təqdim edin.




- Şəxsiyyəti təsdiq edən sənədləri təqdim edin. Əgər onlar sizdə yoxdursa, səbəbini izah edin.




- Barmaq izlərinizi verin və şəklinizi çəkdirin.




- Müraciətinizi təyin olunmuş tarixdə və yerdə təqdim edin.
- Şəxsi müsahibədə iştirak edin və müsahibə zamanı verilən suallara cavab verin.



- Əgər səlahiyyətli qurumlar tələb edərsə, üzərinizin axtarılmasına və əşyalarınızın axtarılmasına razılıq verin. Axtarış yalnız zəruri və əsaslı olduqda aparılacaq. Səlahiyyətli qurumlar axtarışın səbəblərini izah edəcək. Axtarış sizinlə eyni cinsdən olan bir şəxs tərəfindən və ləyaqətinizə hörmətlə yanaşılacaq şəkildə aparılacaq.

## HƏQİQƏTİ SÖYLƏYİN



Dedikləriniz ifadənizin etibarlılığı üçün çox vacibdir. Buna görə dürüst olmalı və şəxsiyyətiniz, ailəniz, mənşə ölkəniz, ölkənizin tərk etməyinizin səbəbləri və niyə oraya qayıtmaq istəməməyiniz barədə tam və etibarlı məlumat verməlisiniz.

Hər şeyi xatırlamaya bilərsiniz, ona görə də bütün suallara cavab verə bilməyəcəksiniz. Bu halda, cavablar uydurmayın, sadəcə xatırlamadığınızı izah edin.

## DÜZGÜN ƏLAQƏ MƏLUMATLARINI TƏQDİM EDİN VƏ ƏLAQƏ ÜÇÜN AÇIQ OLUN




Səlahiyyətli qurumlar beynəlxalq müdafiə üçün müraciətinizlə bağlı sizinlə əlaqə saxlamaqda çətinlik çəkməməlidirlər.

Ünvanınız, elektron poçt ünvanınız və ya telefon nömrəniz dəyişərsə, dərhal səlahiyyətli qurumlara məlumat verin.

❗ Yadda saxlayın, müraciətiniz araşdırıldığı müddətdə Almaniya ərazisini tərk etməməlisiniz.

Əgər siz mərkəzdə yerləşdirilmişsinizsə, səlahiyyətli qurumların icazəsi olmadan başqa yerə getməməlisiniz.

MÜRACİƏTİNİZİ DƏSTƏKLƏYƏN BÜTÜN MƏLUMAT VƏ SƏNƏDLƏRİ FEDERAL MİQRASİYA VƏ QAÇQINLAR İDARƏSİNİN SİZƏ AİD OLAN REGİONAL NÜMAYƏNDƏLİYİNƏ TƏQDİM EDİN.

Şəxsi müsahibəyə dəvət olunmamağınız və prosedurun çox qısa, cəmi bir neçə gün və ya hətta bir neçə saat çəkməsi ehtimalı var. Buna görə də, yenidən müraciət etməyinizin bütün səbəblərini və yeni elementlərini dərhal səlahiyyətli qurumlara bildirməyiniz vacibdir.

Mümkün olduqda orijinal sənədləri təqdim etməlisiniz. Saxta sənəd təqdim etməməlisiniz.




Müraciətinizi təqdim edərkən bütün məlumatları və sənədləri ən qısa müddətdə təqdim etməlisiniz. Əgər lazımi sənədlər əlinizdə deyilsə, Əgər sənədlərə dərhal çıxış imkanınız yoxdursa, qərar qəbul edilənədək onları mümkün qədər tez təqdim etməlisiniz. Sənədləri iş nömrənizi göstərməklə poçtla, şəxsən sizə aid olan regional nümayəndəliyə və ya service@bamf.bund.de elektron poçt ünvanına göndərə bilərsiniz.

# ÖHDƏLİKLƏRİNİZİ YERİNƏ YETİRMƏMƏYİNİZ NƏ İLƏ NƏTİCƏLƏNƏCƏK?

## SIĞINACAQ VERİLMƏ PROSEDURUNUZA XİTAM VERİLƏCƏK




Müraciətiniz geri götürülmüş və ya rədd edilmiş hesab ediləcək. Bu o deməkdir ki, beynəlxalq qorunma üçün müraciət edən statusunuzu və bütün əlaqəli hüquqlarınızı itirə bilərsiniz.

Bu, aşağıdakı  imtina hallarında baş verəcək:

- tələb olunduqda məlumat verməkdən
- barmaq izlərinizin alınmasından və ya şəklinizin çəkilməsindən
- ünvanınızı təqdim etməkdən
- şəxsi müsahibə zamanı sualları cavablandırmaqdan.

Bunlar, aşağıdakıları etdiyiniz halda da baş verəcək:

- Ciddi bir səbəb olmadan müraciətinizi müəyyən edilmiş müddət ərzində təqdim etmədiyinizdə
- Ciddi bir səbəb olmadan şəxsi müsahibəyə qatılmadığınızda
- tələb olunduqda səlahiyyətli qurumlara hesabat vermədiyinizdə
- qalmağa məcbur olduğunuz yerdə qalmadığınızda
- Səlahiyyətli qurumlar sizinlə əlaqəyə keçə  bilmədikdə
- Ölkəni tərk etdiyinizdə.

Məsələn, ölkənizə qayıtmaq qərarına gəldiyiniz üçün sığınacaq proseduru zamanı istənilən vaxt müraciətinizi geri götürə bilərsiniz. Bu halda, beynəlxalq müdafiə üçün müraciət edən statusunuzu itirəcəksiniz.

## BƏZİ QƏBUL DƏSTƏYİ NÖVLƏRİ VƏ BƏZİ XİDMƏTLƏR İXTİSARA SALINA VƏ YA LƏĞV EDİLƏ BİLƏR



Bəzi hallarda, sosial təminat orqanları müəyyən dəstək növü və ya bəzi xidmətləri ixtisara salmaq və ya ləğv etmək qərarına gələ bilərlər. Sosial təminat orqanları vəziyyətinizi qiymətləndirdikdən sonra belə bir qərar barədə sizə yazılı şəkildə məlumat verəcəklər.

## MÜRACİƏTİNİZ MƏNFİ QİYMƏTLƏNDİRİLƏ BİLƏR

Şəxsiyyətiniz və ya müraciətinizlə bağlı yanlış və ya yalan məlumat təqdim etsəniz, eləcə də sənədləri məhv etsəniz və ya saxtalaşdırsanız, bu, müraciətinizə mənfi təsir göstərə bilər, məsələn, aşağıdakı kimi.



- Müraciətiniz rədd edilə bilər və beynəlxalq qorunma əldə edə bilməyəcəksiniz.

- Müraciətiniz sığınacaq sərhəd prosedurunda araşdırıla bilər (əgər bu baş verərsə, prosedur haqqında xüsusi məlumat alacaqsınız).

Əgər səlahiyyətli qurumlar sonradan sığınacaq proseduru zamanı həqiqəti demədiyinizi aşkar edərsə, beynəlxalq müdafiədən məhrum ola bilərsiniz.

## EHTİYACINIZ VARSA, XÜSUSİ DƏSTƏK ALACAQSINIZ

Xüsusi dəstəyə ehtiyacınız olarsa, ən qısa müddətdə səlahiyyətli qurumlara məlumat verməlisiniz. Bu ehtiyaclar hamiləlik, xəstəlik və ya psixoloji, fiziki və ya cinsi zorakılıq kimi müxtəlif vəziyyətlərdən yarana bilər.

Səlahiyyətli qurumlar vəziyyətinizi qiymətləndirəcək və sığınacaq prosedurunda iştirakınızı asanlaşdırmaq üçün əlavə dəstək göstərə bilərlər. Məsələn, onlar işinizə ixtisaslaşmış heyət təyin edə və ya sığınacaq prosedurunun müddətini tənzimləyə bilərlər.



# ÖLKƏNİZƏ QAYITMAQ İSTƏYİRSİNİZSƏ NƏ ETMƏLİSİNİZ?

Sığınacaq proseduru zamanı istənilən vaxt könüllü olaraq

- aşağıdakı ölkəyə və ya
- tranzit ölkəsinə və ya başqa bir üçüncü ölkəyə qayıtmaq qərarına gələ bilərsiniz, əgər belə bir hüququnuz varsa

Könüllü olaraq geri qayıtmaq qərarına gəlsəniz, sığınacaq prosedurunuz dayandırılacaq və ya rədd ediləcək və artıq Almaniya ərazisində qalmaq hüququnuz olmayacaq.

Könüllü olaraq geri qayıtmaq istəyirsinizsə, səlahiyyətli qurumlarla əlaqə saxlayın:
Federal Miqrasiya və Qaçqınlar İdarəsi – Geri Qayıdış Qaynar Xətti

Frankenstraße 210
90461 Nürnberg

Telefon: +49 911 943-0
Faks: +49 911 943-1000

Təhlükəsiz və qanuni qayıtmağınız üçün məsləhət və yardım ala bilərsiniz.



## MƏLUMATIN ALINMASININ TƏSDİQLƏNMƏSİ

Rəsmi şəxs sizdən bu məlumatı aldığınızı təsdiqləməyinizi xahiş edəcək.

Əgər hər hansı bir məqamı anlamamısınızsa və ya əlavə suallarınız varsa, istənilən vaxt soruşa bilərsiniz.

## Mənim qeydlərim

## Mənim qeydlərim

Bu broşür yalnız məlumat məqsədi daşıyır. Broşür öz-özlüyündə hüquq və ya öhdəliklər yaratmır. Bu materialın əsas hissəsini EUAA (Avropa İttifaqının Sığınacaq Agentliyi) təqdim edib və bu broşürün surətinin çıxarılması və ona dəyişikliklərin edilməsi EUAA tərəfindən yalnız Aİ Üzv Dövlətləri üçün icazə verilir. EUAA, bu broşürdə yer alan məlumatların dəqiqliyi, məzmunu, bütövlüyü, qanuniliyi və ya etibarlılığı üçün Aİ Üzv Dövlətləri və ya hər hansı digər məsul üçüncü tərəf tərəfindən heç bir məsuliyyət daşımır. Nə EUAA, nə də EUAA adından hərəkət edən hər hansı bir şəxs bu broşürdə yer alan məlumatların istifadəsinə görə məsuliyyət daşımır.

© European Union Agency for Asylum, 2025